# Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının Koordinasiya iclasında çıxış edib

**Aprelin 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistanda Parlamentlərarası İttifaqın (PAİ) 150-ci Assambleyası çərçivəsində keçirilən Asiya Parlament Assambleyasının (APA) Koordinasiya iclasında çıxış edib.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova bildirib ki, bu, APA-nın PAİ çərçivəsində Azərbaycanın sədrliyi ilə keçirilən üçüncü əlaqələndirmə iclasıdır. Spiker deyib ki, bu kimi tədbirlər qarşılıqlı maraqlarımıza aid vacib beynəlxalq məsələlərdə əməkdaşlıq və koordinasiyanın dərinləşməsinə böyük töhfə verir.

2025-ci ilin 18-20 fevral tarixlərində Bakı şəhərində "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş APA-nın 15-ci Plenar iclasının keçirildiyini xatırladan Sahibə Qafarova, 27 dövlətin və 7 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi tədbirin təşkilat daxilində əməkdaşlığın inkişafı, regional və beynəlxalq proseslərlə bağlı birgə marağımız olan müxtəlif məsələlər barədə fikir mübadiləsi aparmaq üçün dəyərli fürsət verdiyini bildirib.



Milli Məclisin Sədri çıxışında Azərbaycanın öz sədrliyi dövründə irəli sürdüyü prioritetlər barədə də danışıb. Onun sözlərinə görə, bu prioritetlər APA-nın institusional imkanlarının inkişafı, sıralarımızın genişləndirilməsi və mövcud orqanların effektivliyinin artırılması ilə bağlıdır. Spiker bu baxımdan 15-ci iclasın yekunlarının olduqca ümidverici olduğunu deyib. Belə ki, 15-ci iclas nəticəsində təşkilatın sıraları genişlənib, Oman Sultanlığının Şura Məclisi APA-nın tamhüquqlu üzvü olub və Belarus Respublikası Milli Məclisinin Respublika Şurası müşahidəçi statusu qazanıb. Eyni zamanda, həmin yığıncaqda APA büdcəsinin formalaşdırılması barədə qərar qəbul edilməsi ilə bağlı razılığa gəlinib ki, bu da Assambleyanın gücləndirilməsi və fəaliyyət qabiliyyətinin artırılması baxımından çox vacibdir. Sahibə Qafarovanın sözlərinə görə, APA Bürosunun fəallaşması və Daimi Komitələrin hər bir yığıncağında onun iclaslarının çağırılması təşkilatın ehtiyaclarına sürətli cavab verməyə kömək edir. Komitələrimizin işləri nəticəsində siyasi, iqtisadi, mədəni, sosial, ətraf mühit və digər məsələləri əhatə edən 29 qətnamə qəbul edilib. Bakı Bəyannaməsi müzakirə olunan məsələlərə dair iştirakçıların ümumi mövqeyini əks etdirir.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, 15-ci iclas çərçivəsində, həmçinin Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu barədə intensiv müzakirələr aparıldı. Hamımız razılaşdıq ki, beynəlxalq normalara və prinsiplərə riayət etmək, effektiv və inklüziv çoxsahəli sistem vacibdir, çünki bu gün qarşılaşdığımız bütün çətinliklərə, ziddiyyətlərə və gərginliklərə qarşı mübarizə aparmaq üçün məhz buna ehtiyacımız var. Və parlament əməkdaşlığı platformalarının getdikcə daha vacib olduğu bir dövrdə, Asiya Parlament Assambleyası konstruktiv dialoq, əməkdaşlıq və həmrəylik üçün mühüm çoxsahəli bir qurumdur.

Milli Məclisin Sədri çıxışına yekun vuraraq bildirib ki, PAİ Assambleyası çərçivəsində APA Koordinasiya iclasının keçirilməsi parlamentarilərimizin diqqətini qarşılıqlı maraq doğuran məsələlərə yönəltməyə və ümumi məqsədlərə nail olmaq üçün resurslarımızı səfərbər etməyə imkan verəcəkdir.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 6 aprel (№ 66).- S.2.